əmin oldum ki, Qaçaq Gülüsüm, sadəcə olaraq, qaçaq hərəkatının başçılarından biri deyil, xalq qəhrəmanıdır! 40 ilə qədər kişi qiyafəsində nər kişilərdən ibarət olan qaçaq dəstələrinə başçılıq edərək xalqının varlığını, əyilməzliyini sübut edən Qaçaq Gülüsüm Azərbaycan qadınlığının qəhrəmanlıq tarixinin ən parlaq səhifələrindən biridir, bizim şan-şöhrət tariximizdir!

Oxuculara onu da məlum etməyi özümə borc bilirəm ki, əsərin müəllifi Vilayəddin Quliyev Qaçaq Gülüsümün qardaşı nəvəsidir. Bu qiymətli əsəri qələmə aldığı üçün Vilayəddin Quliyevə bir də ona görə hörmətim artdı ki, onun babası İsmayıl Əmirqulu oğlu Qaçaq Gülüsüm tərəfindən öldürülməsinə baxmayaraq o, haqqında söhbət açdığımız xalq qəhrəmanı ömrünün ixtiyar çağında olarkən onunla dəfələrlə görüşmüş, xalq qəhrəmanı Qaçaq Gülüsümün həyatını böyük məhəbbətlə qələmə almışdır!

Yeri gəlmişkən, dəfələrlə apardığım söhbətlər zamanı əsərin müəllifi Vilayəddin Quliyevin Azərbaycanımızın, bütün türk dünyasının tarixinə dair olduqca zəngin məlumata malik olmasının, onun tükənməz Vətən sevgisinin də şahidi oldum. Ona müharibə vəziyyətində olan Azərbaycan gəncliyinə hava-su qədər gərəkli bir əsər bəxş etdiyi üçün deməli ancaq bircə sözüm qalır: **Sağ ol, Vilayəddin müəllim, yazdığın əsərin qəhrəmanı** *Qaçaq Gülüsüm deyil,* **Xalq qəhrəmanı Qaçaq Gülüsümdür!** Bu qiymətli əsərinlə sən Azərbaycan qadınlığının qəhrəmanlıq tarixinə bir xalq qəhrəmanı da əlavə etdin!

**Yaqub Mahmudov**
**Əməkdar elm xadimi,**
**AMEA-nın müxbir üzvü,**
**Dövlət mükafatı laureatı**

19.03.2013

TƏSDİQ EDİRƏM
Azərbaycan MEA
A.A.Bakıxanov adına Tarix İnstitutunun
elmi katibi




| | | |
|---|---|---|
| 1 | Qaçaq Gülüsüm və Stalin | 1 |
| 2 | Ön söz AMEA-nın müxbir üzvü Y.M.Mahmudovdan | 3 |
| 3 | Kitabın içindəkilər | 5 |
| 4 | Müəllifdən | 9 |
| | I Fəsil | |
| 5 | 1. Gecə yarısı güllə səsi və erməni quldur dəstəsi | 21 |
| 6 | 2. Əmirqulu kişi | 43 |
| 7 | 3. On dörd yaşlı Gülüsümün ilk intiqamları | 51 |
| 8 | 4. Gülüsümquldur İsmayılın dəstəsinə qoşulur | 56 |
| 9 | 5. Gülüsümün quldur İsmayılı öldürməsi | 59 |
| 10 | 6. Gülüsüm Maşadı və Qaçaq Yusif ilə gizlənir | 63 |
| 11 | 7. Qaçaq "Süleyman" və Əhmədli-Goranboy Qaçaqları | 65 |
| | II Fəsil | |
| 12 | 1. Qaçaq "Süleyman" Təbrizə keçir | 69 |
| 13 | 2. Qaçaq Kərəm "Süleyman"ı ölümdən xilas edir | 71 |
| 14 | 3.Qaçaq "Süleyman" Təbriz rəislərini güllələyir | 73 |
| 15 | 4.Kərəm "Süleymanı" yenidən xilas edir | 77 |
| 16 | 5.Qaçaq Kərəm "Süleymanı" Türkiyəyə yola salır | 82 |
| 17 | 6. Gülüsüm qaçaq dostları ilə Vətənə gəlir | 86 |
| 18 | 7.Gülüsümün Tiflisdə Kobanı axtarması | 89 |
| 19 | 8.Qaçaq Gülüsüm və "Naxırçı"lı dəllək Əsgər | 91 |
| 20 | 9.Qaçaq Gülüsüm və Qazaxlı İsmayıl | 96 |
| 21 | 10.Gülüsüm Çardaxfeldəki daşnakları məhv edir | 99 |
| 22 | 11.Gülüsüm on dörd kazakı öldürüb, birini buraxır | 101 |
| 23 | 12.Gülüsüm qardaşı qatilini öldürür | 106 |
| 24 | 13.Gülüsüm gəlininin qatili ermənini öldürür | 109 |
| 25 | 14.Gülüsümilə dörd gəlini | 111 |
| | III Fəsil. | |
| 26 | 1.Qaçaq Gülüsüm və Kobanın (Stalinin) Təbriz görüşü | 112 |
| 27 | 2.Qaçaq Gülüsümün Kobanı həbsdən qaçırması | 127 |
| 28 | 3.Stalinin Bağırovla Gülüsüm haqqında söhbəti | 129 |
| 29 | 4.Stalin Gülüsümün oğullarını cəbhəyə göndərir | 136 |
| 30 | 5.Stalin Gülüsümün oğlunu ikinci dəfə xilas edir | 139 |
| | IV Fəsil | |
| 31 | 1.Qaçaq Gülüsümün atama məsləhəti | 141 |
| 32 | 2.Qaçaq Gülüsümün atamdan halallıq istəməsi | 144 |
| 33 | 3.Qaçaq Gülüsüm məni ölümdən xilas etmişdi | 146 |
| 34 | 4. Qaçaq Gülüsüm və Şamxor "Troykası" | 147 |
| 35 | 5. Ailəmizin məhvinə çalışanlar və onlara qarşı çıxanlar | 149 |
| 36 | 6. Ailəlikcə Moskvaya, SSRİ Ali Sovetinə şikayətə getdik | 163 |
| 37 | 7. Bu kitabın yaranmasının səbəbkarları haqqında | 170 |
| | V Fəsil | |
| 38 | Qaçaq Gülüsümün Azərbaycan xalq folklorunda əksi | 179 |

| | | |
|---|---|---|
| 39 | 1.Ana Zeynəbin bayatısı; 2. Gülüsümün anasından ayrılması | 181 |
| 40 | 3.Gülüsümün Goranboydakı hadisəsi | 182 |
| 41 | 4.İran səfəri üstündə Yusufun Gülüsümə bir qatar sözü | 182 |
| 42 | 5.Gülüsümün Misir xana məktubu | 183 |
| 43 | 6.Gülüsümün İran Şahına yalvarışı | 183 |
| 44 | 7.Gülüsümün İran Şahına ikinci yalvarışı | 184 |
| 45 | 8.Gülüsümün Kərəmə cavab məktubu | 184 |
| 46 | 9.Qaçaq Kərəmin Gülüsümə təsəllisi | 184 |
| 47 | 10.Gülüsümün Kərəmə cavab naməsi | 185 |
| 48 | 11.Gülüsümün Kərəmə ikinci müraciəti | 185 |
| 49 | 12.Gülüsüm zindanda | 185 |
| 50 | 13.Gülüsüm zindanda xifət çəkir | 186 |
| 51 | 14.Gülüsüm Kərəmə dostlarını tanıdır | 186 |
| 52 | 15.Gülüsüm Qaçaq Kərəmlə vidalaşır | 186 |
| 53 | 16.Gülüsüm Türk Paşasına dostları haqqında | 186 |
| 54 | 17.Gülüsüm Naxçıvanlı zəvvara evlərinə namə yazdırır | 187 |
| 55 | 18.Qaçaq Gülüsüm Ağrı Dağında | 187 |
| 56 | 19.Gülüsümün dostlarına özünü tanıtması | 187 |
| 57 | 20. Gədəbəyli Aşıq Səftərin Gülüsümə bəstələdiyi sözlər | 188 |
| 58 | 21.Qaçaq Gülüsüm haqqında yazılmış dastan və əsərlər | 188 |
| 59 | 22. "Muxtar bəy" dastanındakı təhriflər | 193 |
| 60 | 23.Müharibədə atama verilmiş SSRİ Dövlət təltifləri: | 196 |
| | Əlavələr | |
| 1 | Yusif-İosif-Soso-Koba-Stalin | 202 |
| 2 | Qaçaq Kərəm | 224 |
| 3 | Tiflisdəki inqılabçı sosial-demokratlar | 227 |
| 4 | Qaçaq Gülüsüm-Koba görüşləri | 228 |
| 5 | Dövlət başçılarını rüşvətlə ələ alan ermənilər. | 229 |
| 6 | Azərbaycan BSİ-nin (QPU) rəisi Mixail Petroviç Frinovski | 230 |
| 7 | Gecə yarısı güllə səsi | 230 |
| 8 | Qaçaq Süleyman-Qaçaq Gülüsüm. | 232 |
| 9 | İnsanın əbədiliyi-Təbib Bərzuyun 1500 yaşı | 231 |
| 10 | I Xosrov Ənuşirəvan Şah Adil | 234 |
| 11 | Fırıldaqçı "peyğəmbər" Məzdək | 236 |
| 12 | Hürrəmə Fırıldaqçı "peyğəmbər" Məzdəkin arvadı | 236 |
| 13 | Azərbaycanlı hökmdar Babək (Həsən) | 237 |
| 14 | Qızılbaş Səfəvi dövlətinin şahları | 239 |
| 15 | Azərbaycan İmperatoru Qızılbaş Nadir Şah Əfşar | 240 |
| 16 | Qızılbaş Qacar İmperator Ağaməhəmməd Şah | 250 |
| 17 | Qızılbaş Qacar Şahı Nəsirəddin Şah Qacar | 252 |
| 18 | Qızılbaş Qacar Şahı Müzəffərəddin Şah Qacar | 253 |
| 19 | Rusiyanın İrandakı səfiri Aleksandr Qriboyedov | 254 |
| 20 | Qızılbaş Qacarlar əyalətlərində Babilər hərəkatı | 259 |





| | | |
|---|---|---|
| 21 | Qızılbaş Qacarlar əyalətlərində Səttarxan hərəkatı | 261 |
| 22 | Qızılbaş Qacarlar əyalətlərində Xiyabani hərəkatı | 264 |
| 23 | Qızılbaş Qacarlar əyalətləri Azər dövləti-Pişəvəri hərəkatı | 265 |
| 24 | İran Şahı Məhəmməd RzaPəhləvi | 269 |
| 25 | Qarabağ xanıIbrahim-XəlilXan (Qızıbaş-Cavanşir) | 271 |
| 26 | Qızılbaş Qacar İmperatriçəsi Ağabəyim Ağa Cavanşir | 271 |
| 27 | İranın Sabiq Prezidenti Haşiminin Gəncə ziyarəti | 276 |
| 28 | Massaget (Azərbaycanlı Türk ) hökmdarı Tomris | 276 |
| 29 | Makedoniyalı İskəndər | 280 |
| 30 | Azərbaycan hökmdarı Nüşabə | 281 |
| 31 | Ağqoyunlu dövlətinin Hökmdarı UzunHəsən | 282 |
| 32 | Azərbaycanın ilk Diplomat qadını Sara (Saray) Xatun | 283 |
| 33 | Qızılbaş Gəncəli Cavad Xan | 284 |
| 34 | Türklərə nifrətini əks etdirən ermənilərdən ikisi | 293 |
| 35 | Bəzi şovinizmlər | 296 |
| 36 | Azərbaycana düşmən kimlər olub? | 299 |
| 37 | MKİ (Mərkəzi Kəşfiyyat İdarəsi)-də olan daşnak idarəsi | 321 |
| 38 | Erməni təcavüzünün qurbanları | 322 |
| 39 | Azərbaycan və Anadolu Türklərinin, kürdlərin soyqırımı | 331 |
| 40 | Erməni terror təşkilatları | 335 |
| 41 | Bitlisdə daşnak-erməni terroru | 364 |
| 42 | Erməni saxtakarlıqlarını darma-dağın edən dünya mötəbərləri | 367 |
| 43 | Daşnakları dəstəkləyən milis pəisi Baxış Mehtiyev | 372 |
| 44 | Tatar-Monqol istilalarından | 379 |
| 45 | Rusiya imperiyası dövründə bizə "tatar" deyiblər | 381 |
| 46 | Rusiya İmperatoru I Pyotr | 382 |
| 47 | Rusiya imperatorları I, II və III Aleksandrlar | 386 |
| 48 | Rus Knyazı Vasiliy Lvoviç Veliçko | 390 |
| 49 | SSRİ Qəhrəmanı İvan Eliseeviç Sambuk | 391 |
| 50 | Azərbaycan DTK-nin sədri Aleksandr Vasilyeviç Kardaşov | 393 |
| 51 | SSRİ-nin DTK-nin sədri Vladimir Efimoviç Semiçastnı | 393 |
| 52 | SSRİ-nin Dövlət katibi Mixail Profiryeviç Georqadze | 394 |
| 53 | SSRİ Ali Məhkəməsi Sədri Aleksandr Fyodoroviç Qorkin | 395 |
| 54 | Rusiya Qəhrəmanı Fərman Qurban oğlu Salmanov | 395 |
| 55 | Pavel Çiçiyanov (Sisianov) | 400 |
| 56 | SSRİ-nin dağılmasının əsasını qoyan Nikita Xruşov | 403 |
| 57 | İblis damğalı-"666" insan Mixail Qorbaçov | 408 |
| 58 | Kartli-Kaxetiya çarları Teymuraz və II İrakli | 418 |
| 59 | Dahi Gürcü Knyazı İlya Qriqoryeviç Çavçavadze | 420 |
| 60 | Osmanlı İmperatoru Sultan Süleyman Qanuni | 421 |
| 61 | Azərbaycanı və Türkiyəni xilas edən Türk sərkərdələri | 422 |
| 62 | Azərbaycanı və Türkiyəni xilas etmiş Nəriman Nərimanov | 440 |

| | | |
|---|---|---|
| 63 | Azərbaycan Hökumətinin başçısı Fətəli Xan Xoyski | 450 |
| 64 | Zamanların Böyük Azərbaycançısı Heydər Əliyev | 453 |
| 65 | Azərbaycan Generalı Tərlan bəy Abdulla oğlu Əlyarbəyov | 468 |
| 66 | Azər TAC-ın sədri Şamil Məhəmməd oğlu Şahməmmədov | 475 |
| 67 | Azərbaycan qəhrəmanı Bağırov MirCəfər MirAbbas oğlu | 477 |
| 68 | Nadim Hüseyin oğlu Qazıbəyov | 487 |
| 69 | Tofiq Şəfayət oğlu Mehdiyev | 494 |
| 70 | SSRİ-nin Əməkdar milis işçisi Ələsgər Məhəmməd oğlu Əliyev | 503 |
| 71 | Rusiyanın fəxri vətəndaşı Seyran Hacı oğlu Rəhimov | 507 |
| 72 | Qaçaq Gülüsüm atamdan halallıq istədi | 516 |
| 73 | Güllələnmədən qurtulmuş ömür, İbrahim Quliyev | 532 |
| 74 | Şəmkir-Anenfeld-Anino-Şamxor-Şəmkir | 532 |
| 75 | Azərbaycanda çıxan əsil qızıllardan-Gədəbəy mis mədənləri | 534 |
| 76 | Bədirbəylilər | 538 |
| 77 | Rüstəm Bayraməli oğlu Rüstəmzadə | 540 |
| 78 | "Yeddi Dastan"kitabı | 541 |
| 79 | Nadir Ocaqqulu oğlu Süleymanov | 542 |
| 80 | Sərxan Musa oğlu Sadıxov | 543 |
| 81 | İmam Şeyx Məhəmməd Şamil | 546 |
| 82 | Akademik Yaqub Mikayıl oğlu Mahmudov | 554 |
| 83 | Tarix elmləri doktoru Xeyirbəy Sabir oğlu Qasımov | 556 |
| 84 | Atamın ölümdən xilas olmasında iştirak edib indi sağ qalanlar | 562 |
| 85 | Azərbaycan SSR Ali Sovetinin sədrlərindən Nəzər Heydərov | 563 |
| 86 | ÇapayƏli oğlu Sultanov | 565 |
| 87 | Bihuşdarı (Həşiş) | 568 |
| 88 | Mübariz Qurban oğlu Mənsimov | 569 |
| 89 | Dahi İosif Stalinin ailəsi haqqında | 572 |
| 90 | Qaçaq Gülüsümün ailəsi haqqında | 573 |
| 91 | Çar vaxtı Şimali Azərbaycanda erməni terrorlarından | 576 |
| 92 | 1967-1994-cü illər ərazilərimizdə törətdilmiş erməni terroru | 580 |
| 93 | Son 100 ildə kapitalizm dəstəyi ilə torpağımızın erməni işğalı | 581 |
| 94 | Azərbaycan türklərinin deportasiyası haqqında | 584 |
| 95 | Son söz | 587 |
| 96 | Müəllif Vilayəddin İbrahim oğlu Quliyev haqqında | 589 |
| 97 | Atamın Böyük Vətən Müharibəsində aldığı mükafatlar | 590 |
| 98 | Belarusiya Böyük Vətən Müharibəsi Muzeyi məni təbrik edir | 637 |
| 99 | Stalinin, Çiçerinə mənfur ermənilər haqqında məktubu | 647 |
| 100 | AMEA-na müraciət məktubum | 648 |
| 101 | AMEA müxbir üzvü Yaqub Mikayıl oğlu Mahmudovun rəyi | 652 |
| 102 | Polis polkovniki Ələsgər Məhəmməd oğlu Əliyevin rəyi | 653 |
| 103 | AMEA-nın alimləri tərəfindən verilmiş rəylər | 661 |
| 104 | Şəkillər | 667 |
| | | 681 |





## Müəllifdən

"Qaçaq Gülüsümvə Stalin" adlı ensklopedik tarixi faktlarla yazılmış bu əsər, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu tərəfindən yüksək rəy ilə təsdiqlənərək "Tarixi-publisistik" əsər adını almış və Azərbaycanda yaşayan 9 milyonluq soydaşlarımızın düzgün mariflənidirilməsi üçün Dövlət dilində latın əlifbası ilə nəşr edilərək xalqımızın istifadəsinə verilmişdir.

Azərbaycan dilində bizə gəlib çatmış ilk yazılı abidələrimiz ərəb əlifbası ilə yazılmışdır. Tarixdə 26 Dövləti olmuş, hazırda 60 milyonluq Azərbaycan xalqının dünyada məskunlaşan sələfləri uzun əsrlər boyu ərəb, fars, latın və kirilcə yazılmış ədəbiyatdan istifadə etdiyini, hələ də müəyyən üzrlü səbəblərdən latın əlifbasında oxuyub-yazmağı öyrənməsini gecikdirən bir çox vətəndaşlarımızın və xaricdə yaşayan soydaşlarımızın qərəzsiz və düzgün maariflənməsi üçün, hələlik bu əsəri kiril əlifbasına keçirərək oxunulmasını təmin etmişəm. Əsərin rus və türkcəyə, başqa xalqların dilində tərcümə edilməsində də marağım vardır.

Avropanın hər yerində, o cümlədən Litvada, Latviya də Estoniyada, Amerikada, Avstraliyada, Həbəşistan və ərəb ölkələrindən başqabütün Afrikada, Asiyanın bir neçə ölkəsində, Dövlət sənədləri və yazılı ədəbiyyatları latın əlifbası ilə işlənilir. Kiril əlifbası ilə isə, Rusiya, Ukrayna, Belarusiya, Bolqariya, keçmiş Yuqoslaviyanın bir hissəsi, indiki MDB dövlətlərinin əksəriyyətində hazırda da öz ana dillərində Dövlət sənədləri və yazılı ədəbiyyatlarındaişlənilir. Rusiya (142 milyon), MDB (140 miljon) və MDB dövlətlərində yaşayan (Azərbaycanlılar hər il həmin ölkələrə miqrant qismində gedənlərlə bərabər hazırda-4,2milyon nəfəri keçmişdir-V.Q.) həmvətənlərin düzgün mariflənməsinə kömək üçün, Dövlət dilində latın əlifbasında yazılmış bu əsərin, kiril əlifbası ilə də yazılmış variantını təqdim etməyimə görə oxucunun məmun olacağına inanıram.

XIX əsrin son rübündə Şimali Azərbaycanda kəndli hərəkatının ən geniş yayılmış forması qaçaqçılıq idi. Ədalətsizliyin hökm sürdüyü Rusiyada qaçaqlara "xalq qisasçıları" deyirdilər. Qaçaq Gülüsüm Əmirqulu qızı da belə qaçaqlardan olmuşdur. O, 1863-cü ildə Yelizavetpol quberniyasının Qazax qəzası Şamxor mahalının Sərxan kəndində anadan olmuşdur. O, 98 illik ömrünün 38 ilini, qadın ola-ola kişi geyimində yaşayaraq möhtəşəm bir həyat sürmüş, 22 il ərzində "Qaçaq Süleyman" adı altında Qafqazda, İran və Türkiyədə yalnız işğalçılara, məmurlara, pristavlara, bəylərə və xanlara qarşı deyil, əhalini çapıb talayan harınlaşmış hayk-erməni daşnaklarına, yerli azğın qaçaqlara və quldurlara qarşı amansız mübarizə aparmışdır. Gülüsüm Əmirqulu qızı hüququ tapdalananların, kasıbların, məzlum qadınların tərəfində olduğuna görə, uzun müddət Rusiya hakimiyyəti təqibindən qaçaq düşmüş, bir neçə il İranda və Türkiyədə yaşamış, şərəfli ömür sürmüş, Qaçaq Süleyman adı ilə qaçaq dəstəsinə başçılıq etmişdir. Bu kitabda mərdlik və qisasçılıq rəmzinə çevrilmiş qəhrəman azərbaycan qadınlarından birinin Qaçaq Gülüsümün, həyatında baş vermiş bir sıra məlumatlar və hadisələr öz əksini tapmışdır. Dövlətimizin və xalqımızın azadlığının və ləyaqətinin qorunması naminə Qaçaq Gülüsümün həyatının öyrənilməsi, amansız düşmənə nifrət duyğusunun aşılanması, əsrlər boyu zəbt edilmiş Vətən torpaqlarının geri qaytarılması baxımından çox önəmlidir.